10.61764/lasr.1.2023.213-219

**UOT:3.336**

**Vüsalə Babayeva**
*Aqrar Tədqiqatlar Mərkəzi, i.ü.f.d.*
**Elnur Cavadov**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant*
*cavadov.elnur2000@gmail.com*

# QARABAĞ XARİCİ İNVESTORLARIN MARAQ DAİRƏSİNDƏ

*İqtisadiyyatın qloballaşması və uçotun Beynəlxalq Standartların tələbindən irəli gələn səviyyədə qurulması ilə əlaqədar olaraq respublikamızda investisiya fəaliyyətinin uçotunun təkmilləşdirilməsi istiqamətləri məsələləri öz aktuallığı ilə seçilir. investisiya fəaliyyətinin uçotunun beynəlxalq standartların tələbləri konteksində tədqiqi böyük əhəmiyyət kəsb edir.*

*Ölkəmizdə investisiya mühitinin daha da müsbət tərəfə istiqamətlənməsi sahəsində görülən tədbirlər nəticəsində Azərbaycana investisiya yatıran şirkətlərin sayı artır və coğrafiyası genişlənir. İşğaldan qurtulan Qarabağda yaradılan infrastruktur layihələri çox əhəmiyyətlidir. Hal hazırda Qarabağda quruculuq işləri sürətlə yerinə yetirilir, hər rayon və qəsəbələrdə ilkin infrastruktur layihələr görülür, ağıllı kənd və ağıllı şəhər konsepsiyasılarının təməli qoyulub. Odur ki, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları ilə ərazidə olan bütün xidmət, istehsal, ticarət obyektləri tək bir sistem vasitəsilə idarə ediləcək.*

***Məqsəd:*** respublikamızda investisiya fəaliyyətinin uçotunun təkmilləşdirilməsi istiqamətlərini, xüsusilə işgaldan azad olmuş ərazilərimizə investisiya qoyuluşlarının perspektivini araşdırmaqdır.

***Metodologiya:*** məqalədə Azərbaycan Respublikası Prezidentinin qərar və fərmanları, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təlimatları, Auditorlar Palatasının rəsmi nəşrlərindən istifadə olunmuşdur.

***Tədqiqatın nəticələri:*** aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, son illər ərzində ölkəmizdə təmiz enerji layihələri, az karbonlu nəqliyyat, "yaşıl" binalar, tullantıların idarə olunması, təmiz sənaye, təbii iqlim həlləri, inteqrasiyalı tərəfdaşlıqlar, həmçinin inteqrasiyalı və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin hazırlanması istiqamətində əməkdaşlıq imkanlarının araşdırılması nəzərdə tutulur.

***Açar sözlər:*** *investisiya mühiti, investisiya qoyuluşları, investisiyaların uçotu, yaşıl enerji, inteqrasiyalı və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemləri*

## Giriş

BMT Baş Assambleyası 76-cı sessiyasına dəvət olunan ölkə prezidenti İlham Əliyev çıxışı zamanı Qarabağda quruculuq işlərindən və infrastrukturun bərpası ilə yerinə yetirilən layihələrdən danışıb. Əsas məsələ beynəlxalq enerji şirkətlərini azad edilmiş torpaqlarda "yaşıl enerji" layihələrinə cəlb etməkdir. Eyni zamanda, artıq 4 il müddətində ümumi gücü 700 meqavat olacaq 3 yeni külək və günəş elektrik stansiyaları tikintisinə sərmayə qoyuluşudur, bu sahədə üç böyük beynəlxalq enerji şirkəti işə başlayıb, müqavilələr vardır. Bu müqavilələr azad olmuş Qarabağın infrastrukturunun yaradılmasında əhəmiyyəti mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir.

10.61764/lasr.1.2023.213-219

2021-ci il noyabrın 10-da üçtərəfli bəyanat imzalanmışdır ki, torpaqların tərk olunması aktı icra olunduqdan sonra iki əsas məsələ diqqət önündə oldu:

- əhalinin rayonlara köçürülməsi həyata keçirilsin, ilkin infrastruktur layihələr təsdiqlənsin və regionun iqtisadi aktivliyi təmin olunması məqsədilə xarici investisiyalar yatırılsın. Hələ Qarabağ problemi həll olmamışdan öncə də, Azərbaycan dünyada investisiyalara görə ən diqqət önündə olan ölkələrdən olub. 1995-2018-ci illər ərzində Azərbaycana orta hesabla 140 milyard məbləğində ABŞ dolları xarici investisiya yatırılıb [6]. Yatırımların 30%-ini Azərbaycan hökumətinin və həmçinin, ölkə daxilində fəaliyyət göstərən özəl şirkətlərə beynəlxalq maliyyə təşkilatlarının ayırdıqları kreditlər təşkil edir. İnvestisiyaların qalan hissəsinə isə birbaşa xarici investisiyalar olaraq adlandıra bilərik . Nəticə belə alınır ki, Qarabağ münaqişəsinin başa çatması ölkəmizə qarşı investisiya hədəflərini yuksəldir, yaxın zamanlarda bu rayonlara yatırılması planlanan qoyuluşların həcmi daha da artacaq. Onu da vurğulayaq ki, regionun siyasi və coğrafi tərəfdən prioriteti və potensial resursları da çox cəlbedicidir. İndiki dövrdə beynəlxalq təşkilatlar və biznesmenlər, öz maraqlarına müvafiq, azad olunmuş torpaqlara sərmayə yatırmaq istəyirlər. Belə qənaətə gəlmək olar ki, ilkin mərhələdə, kiçik və orta sahibkarlıq sahəsində qoyulacaq investisiyalar gələcək mərhələdə böyük miqdarda ölçülə biləninvestisiyalara təşviq rolunda olacaq. Bir məsələyə diqqət edək ki, investisiyaların cəlb olunamamışdan öncə regionu əhatə edəcək prioritet sərmayə planı və sahələri üzrə xüsusi strategiyalar hazırlanmalıdır. Regionun potensial ehtiyatları, faydalı resursları tədqiq olunmalı, mövcud istehsal amilləri öyrənilməli, sərmayələr üçün şirkətlər tərəfindən verilən təkliflər formalaşdırılmalıdır.

İnvestisiya yatırımları zamanı investisiya fəaliyyətinin məzmunu müxtəlif istiqamətlərdə təzahür edir. Müəssisə səviyyəsində biz bu fəaliyyətə istənilən gəlir gətirən fəaliyyəti daxil edə bilərik. Makrosəviyyədə isə daha qlobal, yəni iqtisadiyyatın hər hansı bir real sektorunun inkişafı naminə olan fəaliyyət kimi baxa bilərik. Dünya təcrübəsində investisiya qoyuluşlarının rəqəmi iqtisadi inkişafın indikatoru (meyarı) göstərilir [1, s. 8-12]. Əgər investisiya yatırımları amortizasiya ayırmalarından azdırsa, deyə bilərik ki, təkrar istehsal prosesi məhdudlaşıb. Əgər investisiya yatırımları amortizasiya ayırmalarına bərabərdirsə, sadə təkrar istehsal prosesi gedir, əlbəttə, böyukdursə, geniş təkrar istehsal prosesi gedir. Belə ziddiyyətlər elmi cəhətdən nəzəriyyələr ilə praktiki həyatdan irəli gələn nəzəriyyələr arasında olan fərqli yanaşmalardan törəyir [2, s. 15-20].

XBİ nəzəriyyələrinə diqqət etsək, XBİ-nin baş vermə səbəbini və XBİ-nin müəyyənedici amillərini izah edir. Nəzəriyyələr ümumiyyətlə praktiki bazarın müsbət və mənfi tərəflərini göstərir. Müasir cəmiyyətdə həm milli, həm də beynəlxalq səviyyədə birbaşa xarici investisiyalar məsələsinə diqqətlə yanaşılır. Çoxsaylı nəzəri tədqiqatçılar birbaşa xarici investisiyalar məsələlərini öyrənir. XBİ ilə bağlı Vintila Denisianın fundamental tədqiqatlardan misal çəkə bilərik [4, s. 104-110].

Maliyyə ekspertlərinin fikrincə, XBİ əksər ölkələrdə, xüsusən də inkişaf etməkdə olan ölkələrdə maddi rifahın inkişafının güclü komponentidir. İqtisadi inkişafla XBİ arasındakı əlaqəni təşkil edən cəhət XBİ-nin təsirlərinin güclü və mürəkkəb olmasıdır. Makro prizmadan, müvəffəq biznes, yüksək səmərəlilik, rəqabət qabiliyyəti və innovasiyanın əsas gövdəsi kimi baxılır. Xüsusilə, az inkişaf etmiş ölkələr üçün investisiya yatırımları yüksək ixracı, dünya bazarlarına və birjalarına çıxışı təmin edir, mühüm maliyyələşdirmə mənbəyi ilə yanaşı bank kreditlərinə ehtiyacı azaldır.

**İnvestisiya qoyuluşlarının iqtisadi inkişafa təsiri**

İnvestisiya qoyuluşlarının iqtisadi inkişafa təsirini analiz etmək üçün Dünya İnvestisiya Hesabatı ekonometrik modellərindən istifadə məqsədəuyğundur. Tədqiqatlar göstərir ki, alıcı

ölkələrin daxili amilləri investisiya qoyuluşları və iqtisadi inkişaf arasında olan əlaqələrə təsir göstərir. Daxili amilləri ticarət siyasətləri, qanunvericilik mühiti və hüquq-mühafizə orqanları kimi qiymətləndirmək olar. Ölkələr öz ölkələrdə açıq ticarət rejimi və yüksək texnoloji biliklər mövcuddursa, XBİ-dən qazanca nail olunacaq. Sərhəd qonşu ölkələrdən investisiyaları və ticarətin formalaşdırdığı rəqabət firmaların innovativ fəaliyyətlərində yüksək təsirə malikdir.

Qlobal Təsir İnvestisiya Şəbəkəsinin apardığı sorğuya əsasən, təsirli investisiyaların 75%-dən çoxu gəlirlilik və sosial və ətraf mühitə təsir baxımından investorların gözləntilərinə cavab verir [2]. Ekspertlər 17 ölkənin təcrübəsini təhlil edərək ümumiləşdirib və təsirli investisiya bazarının inkişafı üçün ən effektiv mexanizmləri müəyyənləşdiriblər. Eyni zamanda, investisiyaların həcmi dünya üzrə 1340 təşkilat, o cümlədən idarəetmə şirkətləri, vençur kapitalı firmaları, banklar, özəl kapital fondları və s. Bunlardan ABŞ və Kanada - 58%, Avropa - 21% [5, s. 7-12].

Təsirli investisiyaların yönəldildiyi əsas sahələr ərzaq və kənd təsərrüfatı, pərakəndə satış sektoru, sosial infrastrukturun inkişafı, enerji, səhiyyə, təhsil və s.

Təsirli investisiyaların əsas xüsusiyyətləri bunlardır:

- investorun investisiya vasitəsilə müsbət sosial və ya ətraf mühitə təsir etmək niyyəti;
- investisiyalar təkcə kapitalın qaytarılmasını deyil, həm də qoyulmuş resursların investorun mənfəətinin artırılmasını təmin edir;
- investor gəlirləri bazardan aşağı qiymətdən riskə uyğunlaşdırılmış bazar gəlirlərinə qədər dəyişir və aktiv sinfinə görə əldə edilə bilər;
- investorun sosial və ekoloji göstəriciləri, əsas investisiyaların dinamikasını ölçmək və hesabat vermək öhdəliyi, şəffaflığın və hesabatlılığın təmin edilməsi.

**İşğaldan qurtulan Qarabağda yaradılan infrastruktur layihələri**

İşğaldan qurtulan Qarabağda yaradılan infrastruktur layihələri çox əhəmiyyətlidir. Hal hazırda Qarabağda quruculuq işləri sürətlə yerinə yetirilir, hər rayon və qəsəbələrdə ilkin infrastruktur layihələr görülür, ağıllı kənd və ağıllı şəhər konsepsiyasılarının təməli qoyulub. Odur ki, ağıllı şəhər və ağıllı kənd konsepsiyaları ilə ərazidə olan bütün xidmət, istehsal, ticarət obyektləri tək bir sistem vasitəsilə idarə ediləcək. Ərazidə güclü texnoloji proyektlərin tətbiqi vacibdir. Ərazinin texnoloji inkişaf perspektivləri həm yerli investorların, həm də xariciləri maraqlandıran ən vacib xüusisyətdir. Yəni ki, ağıllı şəhər və ağıllı kənd proyektləri gələcək zamanda Qarabağa investisiya qoyuluşları üçün əsas həlledici amil olaraq qiymətləndiriləcək. Sammitdə ölkə başçısının çıxışında Qarabağda külək və günəş elektrik stansiyalarının tikilməsi layihələrinə xüsusi önəm verən iqtisadçılar bu proyektlərin respublikamızın iqtisadiyyatının inkişafında əhəmiyyətli yer alacağndan əmindirlər. Nəzərə alaq ki, ölkənin energetika sisteminin əhəmiyyəti iqtisadiyyatında vacib yer tutur.

Digər istehsal sahələri ilə müqayisədə enerjinin istehsalı, istehlakı və satışı sahələri çox səciyyəvi xüsusiyyətlərə malikdir. Bir cəhəti də vurğulayaq ki, Azərbaycanda yenidən qurulan enerji stansiyaları üçün kifayət qədər mənbələr vardır.tədqiqatlar göstərir ki, ölkəmizdə 1 il ərzində 5000 meqavat qədər günəş enerjisi, 4500 meqavat külək enerjisi, 8 yüz meqavatadək geotermal yeraltı istilik enerjisinin istehsalı gücü vardır.

Qeyd edək ki, Qarabağ ərazisi geoloji və coğrafi cəhətləri belə enerji istehsalı məqsədilə çox münasibdir. Gələcəkdə belə alternativ enerjinin istehsalı, külək və günəş enerji stansiyalarının tikilməsi ciddi investisiya axınlarına şərait yaradır. Belə projelərin həyata keçirilməsi, həmçinin belə proyektlərə investisiyaların yönəldilməsi, xarici müəssisələrlə müqavilələr regionda "yaşıl iqtisadiyyat" sistemini yaradacaq.

Ümumiyyətlə, Qarabağın geoloji cəhəti, iqlimi və zəngin ehtiyatları nəzərə alsaq, prioritet sahələrin aydınlaşdırmağa kömək edir. Digər tərəfdən Qarabağın turizm potensialından

qazanıla bilən mənfəət respublikamızın cəmi turizm potensialından qazanılan gəliri üstələyə bilər. Belə tarixi yerlər, regionun zəngin təbiəti və ekoloji vəziyyəti yenidən qurulmalı, beynəlxalq turizm firmalarının müəyyən etdiyi istiqamətlər modern turizm şəraitini qurur [3, s. 2-5].

Eyni zamanda, ərazinin müalicə məqsədli resurslara malik olması tibbi turizmin, münbit iqlim şəraitinin və kənd təsərüfatına yararlı sahələrin mövcud olması isə kənd təsərrüfatının inkişafına, həmçinin heyvandarlığın inkişafına təşviq edəcəkdir. Sadəcə, 7 rayonun kənd təsərrüfatına faydalı ərazilərinin həcmi 535000 hektar olur. Ona görə də, kənd təsərrüfatının ən son texnologi avadanlıqların köməyi ilə yüksəldilməsi yerli tələbatın ödənilməsinə şərait yaradacaq, həmçinin məhsulların xarici ölkələrə ixracatına dəyər yaradacaqdır.

Qarabağ regionunda mədən, enerji və ərzaq sənayelərinin, şərabçılıq, logistika sahələri ən tələbatlı investisiya qoyulacaq sektorlara aid edilir. 2021-ci ildə inşası başa çatmış Füzuli hava limanını 1 saatda 200 sərnişin qəbul edə bilir. Burada, uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni 60 metr hesablanılıb istifadəyə verilib. əsas odur ki, Beynəlxalq Mülki Aviasiya Şirkətinin tələblərinə müvafiq olaraq uçuşların təhlükəsizliyi təmin edən müasir enmə və naviqasiya sistemləri, radiolakasiya, işıqtexniki sistemləri istifadəyə verilmişdir. Belə şərtlər hava limanında istənilən növ təyyarələrin qəbul edilməsi imkan yaradır. Hava limanından Şuşa şəhərinə istiqamətlənən avtomobil yolunun tikintisinin bünövrəsi qoyulub və işlər davam edir. Füzuli aeroportu müharibədə azad edilmiş Qarabağa xarici turistlərin gəlmələri üçün çox əhəmiyyətlidir və yeni layihələrə imkan yaradacaqdır. Qarabağın incisi və Azərbaycanın mədəniyyət paytaxtı hesab olunan Şuşa şəhərinə ziyarət etmək istəyən xarici turistlərin sayı artıb. Xarici turistlərin əlverişli vətez zamanda, birbaşa azadlığa qovuşmuş ərazilərimizə səfər etməkləri üçün Füzuli hava limanı çox gözəl şərait yaradacaq, regionda turizm yaranacaq.

Xüsusilə qeyd edək ki, 5 sentyabr 2021-ci ildə Azərbaycanın «Silk Way» aviaşirkətinə aid böyük yük təyyarələrindən biri "Boeing 747-400" hava gəmisinin Fizuli hava limanına enişi diqqət çəkdi. Bu təyyarə Qarabağa yuklərin çatdırılmasında bir yenilik etdi. Bu hadisə sübut etdi ki, hava limanının yükdaşımalar, xüsusilə beynəlxalq səviyyədə yükdaşımalar baxımından xüsusi əhəmiyyətə malikdir. Bu ərazilərimizin sənaye potensialını qeydə alsaq, hava limanı gələcəkdə Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarına şıxışını təmin edəcək və ərazinin ixrac imkanlarını yuksəldəcək. Ancaq qeyd etməliyik ki, iqtisadi, strateji mövqedən Füzuli hava limanının tikintisi azadlığa qovuşmuş ərazilərdə beynəlxalq kommunikasiyaların qurulması istiqamətində görülən yeganə layihə deyil. Zəngilan və Laçın hava limanları layihələri Azərbaycanın azd edilmiş rayonlarına Böyük Qayıdışı təmin edən böyük strateji layihələrdir. İqtisadçıların fikrincə, Füzuli, Laçın və Zəngilan aeropotlarının inşası Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm və istehsal mərkəzlərinə çevrilməsinin təminatıdır. Belə layihələr Qarabağda xarici investorların investisiya yatırmasına yeni şanslar yaradır. Belə yatırımlar torpaqların abadlaşması və yenidən qurulması hadisələrini həqiqətə çevirir.

Azərbaycanın Baş naziri Əli Əsədov fevral ayında Ankaraya səfər edib və Türkiyə-Azərbaycan Biznes Forumunda iştirak edərkən türk şirkətlərinə çoxlu iş tapşırıldığını, o cümlədən Şuşaya və başqa bir bölgə olan Kəlbəcərə yeni yolun tikintisinin davam etdiyini bildirib. Forumda Azərbaycan və Türkiyə şirkətləri arasında 11 müxtəlif müqavilə imzalanıb ki, onların ən böyüyü Azərbaycanın İqtisadiyyat Nazirliyi və Cengiz Holdinqin törəmə şirkəti olan Eti Bakır A.Ş. arasında əməkdaşlıq müqaviləsi hesab olunur. Cengiz Holdinq və Kalyon Qrupun ortağı Artvin Madenə Elbeidaş və Ağdüzdağda fəaliyyətə icazə cerən lisenziya verilib. Bu görüşdən sonra prezident tərəfindən Qaşqaçay mədənində kəşfiyyat və istismar lisenziyasının 30 il müddətinə Eti Bakıra verilməsi haqqında fərman imzalanıb. Kalyon İnşaatla bölgənin yollarının tikintisi ilə bağlı müqavilə imzalanıb.

“Kalyon İnşaat” tərəfindən inşa edilən Füzuli və Şuşa şəhərlərini birləşdirən yolunun təməli prezident İlham Əliyev tərəfindən qoyulub. Həmçinin, Eti Bakır A.Ş., Elbeidaş və Ağduzdağ filiz yataqlarının, Qaşqaçay, Elbeidaş və Ağduzdağ qızıl mədəni yataqlarının tədqiqi və istismarı üzrə 30 il müddətinə Cengiz Holdinqə təhvil verilib. 1995-ci ildə yaradılan Azərbaycan-Almaniya Birgə Müəssisəsi olan “AzVirt” Bakıda şəhərdaxili yolların tikintisində fəaliyyət göstərdikdən sonra tədricən yol və hava limanı infrastruktur layihələrinə tam xidmət göstərən beynəlxalq şirkət olaraq tanındı. AzVirt Azərbaycanın ən böyük və tanınmış yol tikinti şirkətlərindən biridir. AzVirt yarandığı gündən 20 ildən artıq müddətdə sürətlə inkişaf edib və regionda nəqliyyat infrastrukturunun inkişafına artan tələblərə cavab vermək üçün fəaliyyətini genişləndirib. Hazırda şirkətdə 1300-ə yaxın işçi çalışır. Onların arasında Azərbaycan vətəndaşları ilə yanaşı, Almaniya və Türkiyədən olan ekspertlər də çalışır.

22 fevral 2021-ci il tarixində Energetika Nazirliyi ilə BP şirkəti arasında iri miqyasda karbonsuzlaşdırılmış, inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın şəhər və rayonlarında bərpa olunan enerji layihələri üçün tələb edilən potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu imzalanmışdır. Memorandum çərçivəsində, təmiz enerji layihələri, az karbonlu nəqliyyat, "yaşıl" binalar, tullantıların idarə olunması, təmiz sənaye, təbii iqlim həlləri, inteqrasiyalı tərəfdaşlıqlar, həmçinin inteqrasiyalı və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin hazırlanması istiqamətində əməkdaşlıq imkanlarının araşdırılması nəzərdə tutulur. Bundan əlavə, 2021-ci ilin iyun ayının 3-də Cəbrayıl və Zəngilan ərazisində 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi üzrə bp ilə İcra Müqaviləsi imzalanmışdır. Sənəd çərçivəsində bp tərəfindən tikilməsi planlaşdırılan elektrik stansiyası layihəsi ətrafında müvafiq iqtisadi və texniki təhlillər aparılacaq, yekun qərar veriləcəkdir.

**Diaqram 2.2.1. Əsas kapitala istiqamətlənmiş investisiyalarin ümumi dəyəri**




*Mənbə:* https://www.stat.gov.az/

**Nəticə**

Dövlət Statistika Komitəsi məlumatlarına görə son illər ərzində neft-qaz sektoruna qoyulan xarici vəsaitlərin həcmi 23,6 % azalıb, əksinə qeyri-neft-qaz sektoruna qoyulan xarici vəsaitlər 14,6 % yuksəlib. Vəsaitlərin 2 milyard 829 000 000 manatı (57,6 %) məhsul istehsalına, 1milyard 799 000 000 manatı (36,6 %-i) xidmət sahələrinə, 286 000 000 manatı (5,8 %) isə binaların tikintisinə istifadə edilib. Əsas kapitala istiqamətlənmiş

investisiyaların 3 milyard 657 300 000 manatını (74.4%) daxili vəsaitlər təşkil edir. Əsas kapitala istiqamətlənmiş investisiyaların 3 milyard 534 000 000 manatı (71,9 %) tikinti-quraşdırma işlərində istifadə olunub.

Azərbaycan Mərkəzi Bankının məlumatlarına görə, ölkədə birbaşa xarici investisiyaların strukturunda neft-qaz sektorunun payı 59.5% ibarətdir. 2022-ci il I rübə görə tədiyə balansına baxaq: Birbaşa xarici investisiyalar neft-qaz sahəsi üzrə xalis maliyyə öhdəlikləri (-1760.4 mln. dollar) azalıb, araşdırmalar göstərir ki, əksinə qeyri-neft sahəsinə yönəldilmiş birbaşa xarici investisiyaların ümumi məbləği 735.2 mln. dollar təşkil edir (4.9 dəfə artıb).

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. https://www.stat.gov.az/
2. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 22 iyun 2022-ci il, №551-VIQ
3. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi / Azərbaycan Respublikası Auditorlar Palatası – Bakı: 3 saylı Bakı kitab mətbəəsi, – 2019. – 320 s.
4. Vintila Denisia, “Foreign Direct Investment Theories: An overview of the main FDI theories”, Academy of Economic Studies, Vol 2, 2010, p. 104-110.
5. Азизи Е.О., Азизи О., Клевцов В.В. Импакт-инвестиции: мировой опыт и особенности российского рынка // Фундаментальные исследования. – 2022. – № 3. – С. 7-12;
6. Ataç B. (2019), Maliye Politikası, Anadolu Üniversiteti Egitim, Saglık ve Bilimsel Araştırma Çalışmaları Vakfı Yayınları; No:118, Eskişehir


**Вусала Бабаева**
**Эльнур Джавадов**

## КАРАБАХ В ЗОНЕ ИНТЕРЕСОВ ИНОСТРАННЫХ ИНВЕСТОРОВ

### *РЕЗЮМЕ*


В связи с глобализацией экономики и установлением учета на уровне, вытекающем из требований международных стандартов, вопросы совершенствования учета инвестиционной деятельности в нашей республике отличаются своей актуальностью. Изучение учета инвестиционной деятельности в контексте требований международных стандартов имеет большое значение.

В результате предпринятых мер по направлению инвестиционной среды в нашей стране в более позитивное русло, увеличивается количество компаний, инвестирующих в Азербайджан, расширяется их география. Инфраструктурные проекты, созданные в освобожденном от оккупации Карабахе, очень важны. В настоящее время в Карабахе быстрыми темпами ведутся строительные работы, в каждом районе и поселке осуществляются предварительные инфраструктурные проекты, заложены основы концепций «умного села» и «умного города». Поэтому с концепцией умного города и умной деревни управление всеми сервисными, производственными и торговыми объектами района будет осуществляться через единую систему.

***Цель:*** Рассмотреть направления совершенствования учета инвестиционной деятельности в нашей республике, особенности перспективы инвестиций на наших территориях, освобожденных от оккупации.

***Методология:*** В статье использованы постановления и указы Президента Азербайджанской Республики, распоряжения Министерства финансов Азербайджанской Республики, официальные издания Счетной палаты.

10.61764/lasr.1.2023.213-219

***Результаты исследования:*** В результате проведенных исследований установлено, что в последние годы проекты чистой энергетики, низкоуглеродного транспорта, «зеленых» зданий, обращения с отходами, чистой промышленности, природных климатических решений, интегрированных партнерств, а также по мере развития интегрированных и обезуглероженных энергетических и транспортных систем в нашей стране планируется изучить возможности в направлении сотрудничества.

***Ключевые слова:*** инвестиционная среда, инвестиции, учет инвестиций, зеленая энергетика, интегрированные и обезуглероженные энергетические и транспортные системы

**Vusala Babayeva**
**Elnur Javadov**

## KARABAGH IS IN THE AREA OF INTEREST OF FOREIGN INVESTORS

### *ABSTRACT*

In connection with the globalization of the economy and the establishment of accounting at the level arising from the requirements of International Standards, the issues of improving the accounting of investment activity in our republic are distinguished by their relevance. the study of investment activity accounting in the context of the requirements of international standards is of great importance.

As a result of measures taken in the direction of the investment environment in our country in a more positive direction, the number of companies investing in Azerbaijan is increasing and their geography is expanding. The infrastructure projects created in Karabakh, freed from occupation, are very important. Currently, construction works are being carried out rapidly in Karabakh, preliminary infrastructure projects are being carried out in every district and settlement, and the foundations of smart village and smart city concepts have been laid. Therefore, with the concept of smart city and smart village, all service, production and commercial facilities in the area will be managed through a single system.

***Purpose:*** To examine the directions of improving the accounting of investment activity in our republic, especially the perspective of investments in our territories freed from occupation.

***Methodology:*** Decisions and decrees of the President of the Republic of Azerbaijan, instructions of the Ministry of Finance of the Republic of Azerbaijan, official publications of the Chamber of Auditors were used in the article.

***Results of the study:*** As a result of the conducted studies, it was determined that in recent years, clean energy projects, low-carbon transport, "green" buildings, waste management, clean industry, natural climate solutions, integrated partnerships, as well as the development of integrated and decarbonized energy and transport systems have been developed in our country. İt is planned to investigate the possibilities in the direction of cooperation.

***Keywords:*** investment environment, investments, investment accounting, green energy, integrated and decarbonized energy and transport systems